DOI: https://doi.org/10.36719/2706-6185/49/7-16

**Xəzər Hüseynov**
Naxçıvan Dövlət Universiteti
tarix elmləri doktoru
https://orcid.org/0009-0009-9396-1903
xezerhuseynov@gmail.com
**Elçin Zamanlı**
Naxçıvan Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-9766-1810
elcinzamanli70@gmail.com

# Azərbaycan, Rusiya və Türkiyə diplomatiyasında Naxçıvan

## Xülasə

1920-1921-ci illərdə beynəlxalq durum ağır olmasına baxmayaraq, Osmanlı Türkiyəsi Azərbaycanın, xüsusilə də Naxçıvanın tarixi taleyinə biganə qalmadı. I Dünya müharibəsindən sonra bütün Transqafqaz millətlərinin azadlıq yönündəki dirəniş cəhdlərini öz siyasi iradələrinə tabe etdirməyə və türk-müsəlmanların ən etibarlı tərəfdaşı olan Türkiyəni Cənubi Qafqaza, Orta Asiya və ümumiyyətlə, türk dünyasına yönəlik ən əlverişli yoldan məhrum etmək üçün Müttəfiqlər Naxçıvan və çevrəsinin ermənilər tərəfindən tezliklə zəbtinə çalışırdılar. Rusiya və İranın bu siyasi burulğanda Azərbaycana güzəştə gedəcəyinə inanmaq sadəlövlük olardı. Yeri gəlmişkən, İran da öz növbəsində Naxçıvanı ələ keçirməyə meylli idi. Belə kövrək bir zamanda İran agentləri çətin psixoloji durumda olan əhalini İrana meylləndirməyə çalışırdılar. Bu durumda Naxçıvan böyük dövlətlərin Azərbaycan və Türkiyə ilə diplomatik münasibətləri müstəvisində düyün nöqtəsinə çevrilmişdi. 20-ci illərin əvvəllərində Naxçıvan Türkiyə-Sovet münasibətləri müstəvisinə keçdi.

***Açar sözlər:*** *Türkiyə, Rusiya, Naxçıvan, diplomatiya, bolşeviklər*

**Khazar Huseynov**
Nakhchivan State University
Doctor of History
https://orcid.org/0009-0009-9396-1903
xezerhuseynov@gmail.com
**Elchin Zamanli**
Nakhchivan State University
PhD in History
https://orcid.org/0009-0005-9766-1810
elcinzamanli70@gmail.com

# Nakhchivan in the Diplomacy of Azerbaijan, Russia and Turkey

## Abstract

In spite of tense international situation in 1920-1921s OttomanTurkey did not remain indifferent to the historical fortune of Azerbaijan especially of Nakhchivan. After the World War I the Allies tried to capture Nakhchivan and surroundings by the Armenians in order to subject all Transcaucasian nations‘ resistance attempts for liberty to their political will and to deprive Turkey, the most reliable partner of Turkish-Muslims from the most favourable way to Southern Caucasus, Central Asia and generally Turkic world. It would be naveity to believe that Russia and Iran would compromise with Azerbaijan in this political turbulence. It must be noted that Iran also intended to capture Nakhchivan. In such a delicate situation Iranian agents tried to direct the people who were

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

in serious psychological situation to Iran. In this situation Nakhchivan became the point of knot in the frame of diplomatic relations of super states with Azerbaijan and Turkey. In the early 20s Nakhchivan passed to the plane of Turkey-Soviet relations.

***Keywords:*** *Turkey, Russia, Nakhchivan, diplomacy, bolsheviks*

## Giriş

XX yüzilliyin əvvəlləri beynəlxalq münasibətlərdə yeni bir dönəmin başlandığı dövrdür. I Dünya müharibəsinin sonunda ABŞ beynəlxalq münasibətlər sistemində "qüvvələr tarazlığı" prinsipini ortadan qaldıraraq yeni on dörd maddəlik prinsipini bərqərar etmiş oldu (Kissinger, 2006, s. 9–14). Versal konfransında böyük güc təşkil edən dövlətlər Osmanlı Türkiyəsinin ərazisini bölməyə çalışırdılar. Müttəfiqlərin anbaan hədələri qarşısında qalan Türkiyə bir an olsun belə Azərbaycanı real düşmənlərin təhlükələri ilə üz-üzə qoymadı.

Birinci Dünya müharibəsinin sonunda Müttəfiqlərin liderləri yalnız Osmanlı Türkiyəsini tezliklə bölmək haqqında düşünürdülər. Hətta müttəfiqlərin liderləri dünya mətbuatında İttihad liderlərini ayrı-ayrılıqda cəzalandıracaqlarını elan edirdilər (Atay, 2011, s. 152). Rusiyada baş qaldıran inqilabi hərəkat onun Türkiyə məsələsində fəal iştirakına mane oldu (Uçarol, 2000, s. 546). Beynəlxalq durumun belə ağır olmasına baxmayaraq, Osmanlı Türkiyəsi Azərbaycanın, xüsusilə də Naxçıvanın tarixi taleyinə biganə qalmadı. Türkiyənin bu dönəmdəki tarixi ilə bağlı çoxlu təhriflər var. Buna görə də müasir tarixşünaslığımızın bu gün XX yüzilliyin əvvəllərindəki Azərbaycan-Türkiyə münasibətlərinə dair araşdırmalı olacağı çox problemlər mövcuddur. Bu kontekstdə araşdırılacaq problemlər aşağıdakılardır:

1. Ümumiyyətlə, Azərbaycan-Türkiyə münasibətlərinin XX yüzillikdəki bütün tarixi nüansları.
2. Türkiyədə uydurma "erməni soyqırımı" ilə bağlı tarixi həqiqətlərin araşdırılması və fundamental elmi həqiqətlərin həm Azərbaycan ictimaiyyətinə çatdırılması, həm də təhsil ocaqlarında tədris olunması.
3. XX yüzilliyin əvvəllərində Türkiyənin Cənubi Qafqaz siyasətində və Ermənistanla münasibətlərində Azərbaycan faktoru.
4. 1917–1922-ci illərdə Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunmasında Türkiyənin hərbi-siyasi və diplomatik yardımı.

a) 1917–1918-ci illərdə Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrində ermənilərin həyata keçirdikləri türk-müsəlman soyqırımı ("etnik təmizləmə") siyasətinə qarşı Osmanlı ordusunun müqaviməti;

b) 1918-ci ilin sentyabrında Bakının rus-sovet və erməni qüvvələrindən təmizlənməsi;

c) Araz-Türk Cümhuriyyətinin tarixi və onun Türkiyə ilə əlaqələrinə dair yeni məlumatların əldə edilməsi;

d) Moskva və Qars konfranslarında Türkiyə diplomatiyasının Azərbaycanın bölünməzliyi (xüsusilə Böyük Atatürkün təbirincə "türk qapısı" kimi dəyərləndirilən Naxçıvan bölgəsi) uğrunda mübarizəsi;

5. Sovet dövrünün ilk çağlarında Türkiyəyə mühacirət etmiş Azərbaycan türklərinin siyasi-elmi çalışmaları və Vətənin azadlığı uğrunda mücadilələri.
6. Türkiyənin qurtuluş mücadiləsi tarixinin, Atatürk dönəmində dövlətçilik prosesləri, parlamentarizm ənənələrinin və demokratiyanın inkişafı mərhələlərinin araşdırılması və tələbələrə çatdırılması (Musayev, 1998, s. 4–5).

Araşdırdığımız bu mövzu Azərbaycanın sovet dövrü tarixşünaslığında da xüsusi olaraq tədqiq edilməmişdir. Həmin dövrdə yazılan tədqiqatlarda yekdilliklə Türkiyənin Naxçıvana hərbi yardımını və siyasi dəstəyini "işğal", rus qoşunlarının gəlişi və Sovet hakimiyyətinin qurulmasını isə "nicat yolu" kimi qiymətləndirilməsi mövqeyindən çıxış etmişlər. Bu tarixi problemə erməni tarixşünaslığında xüsusi yer verilmişdir. Erməni tarixçilərindən bəzilərinin Ermənistanda sovet hakimiyyətinin qurulması, Türkiyə və Rusiya ilə əlaqədar problemlərə həsr etdikləri əsərlərdə Azərbaycanın Naxçıvan, Zəngəzur bölgələrinin o dövrki vəziyyətinə aid məsələlərə də özlərinin tarixləri kimi diqqət yetirilmişdir. Şübhəsiz, ermənilərin mənafe və məqsədlərindən doğan bu maraq çoxlu tarixi hə-

qiqətlərin saxtalaşdırılmasını və faktların təhrif olunmasını şərtləndirmişdir. Erməni müəlliflərindən İ. Ağayan, A. Akopyan, S. Vartanyan, Q. Qaloyan, Naxçıvan-Zəngəzur mahallarında azərbaycanlıların qırğınlarının təşkilatçıları olan Andranik, Dro və Njdenin əməllərini siyasi ibarələrlə ört-basdır etməyə çalışmış, Türkiyənin Transqafqazdakı siyasətinin mahiyyətini saxtalaşdırmışlar.

Erməni tarixşünaslığında ana xətlərdən birini də Türkiyənin 1918-ci ildə Azərbaycana göstərdiyi siyasi-hərbi yardımın məqsəd və məzmununun təhrif olunması təşkil edir (Musayev, 1998, s. 14–22).

Araşdırdığımız problemin ayrı-ayrı cəhətləri Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimlərinin əsərlərində işıqlandırılmışdır. Adil Xan Ziyadxanın çox qiymətli elmi-publisistik əsərində bəzi siyasi məsələlərlə yanaşı Türkiyənin erməni zorakılıqlarına qarşı həyata keçirdiyi tədbirlər, türk ordusunun Azərbaycandakı qurtarıcı missiyası, milli hökumətin atdığı düzgün addımlar, habelə Andranikin Qarabağda, Naxçıvanda və Zəngəzurda yeritdiyi "etnik təmizləmə" siyasəti, onun şamuyanla əlaqələri öz əksini tapmışdır (Ziyadxanov, 1993, s. 79–104).

**Tədqiqat**

Araşdırdığımız mövzunun ayrı-ayrı aspektləri müxtəlif çoxsaylı qaynaqlar əsasında Türkiyə tarixşünaslığı tərəfindən də öyrənilmişdir. Müasir Türkiyə tarixçilərindən F. Kırzıoğlu, R. Uçarol, G. Ural, M. Saray, İ. Sakarya, Erat M. və b. əsərlərində Azərbaycana göstərilən Osmanlı siyasi-hərbi yardımı, ermənilərin azərbaycanlılara qarşı törətdikləri zorakılıqların qarşısının alınması, Naxçıvanın erməni işğalından qurtarılması, milli ordu hissələrinin təşkilinə edilən kömək məsələləri, AXC-nin İrəvandakı səfirliyinin bu işlərlə bağlı fəaliyyəti önə çəkilmişdir. Görkəmli hərbçilərdən K. Qarabəkirin və V. Ünvərin memuarları da bu məsələlərə aydınlıq gətirilməsi üçün çox dəyərlidirlər.

Ermənilərin mənafelərinin iri dövlətlərin münasibətləri müstəvisinə qaldırılması, Moskva və Qars müqavilələrinin əhəmiyyəti və Naxçıvanın erməni işğalından qurtuluşu, türk qoşunlarının Qars və Cənub-Qərbi Qafqazdakı xilaskarlıq missiyası və s. bu kimi məsələlər K. Qarabəkirin əsərlərində geniş işıqlandırılmışdır. Əsərlərində müəyyən ziddiyyətli məqamların olmasına baxmayaraq, onlar tarixşünaslığımız baxımından çox qiymətlidir. K. Qarabəkir türk ordusunun 1920-ci ilin oktyabrında Qars qalasını tutarkən ən mədəni ordulardan üstün bir qüdrətə və insanlıq duyğularına sahib olduqlarını göstərirdi. Bunu oradakı Amerika heyəti də 31 oktyabrda admiral Bristola yazmışdı.

Naxçıvan öz geopolitik əhəmiyyətinə görə daim Türkiyənin xarici siyasətində önəmli yer tutmuşdur. Dörd ölkənin qovuşuğunda yerləşən Naxçıvan mahalı çox böyük strateji və geosiyasi əhəmiyyət kəsb etmişdir. Türkiyə Azərbaycanda qısa müddət ərzində baş verən, bir-birilə çox kəskin təzad təşkil edən ictimai quruluş və siyasi sistem dəyişikliklərinə baxmayaraq, onun ərazi bütövlüyünün təmin olunmasına hərbi-siyasi yardım göstərərək "Naxçıvan türk qapısıdır" (Atatürk) və Naxçıvanla Zəngəzurun Anadolu ilə Azərbaycanı birləşdirən strateji koridor rolunu oynaması mövqeyinə üstünlük verirdi. Rusiya və İran isə həmin bölgələr də daxil olmaqla bütün Quzey Azərbaycanın yenidən ələ keçirilməsinə çalışır və buna özlərinin "tarixi torpaqlarının geri qaytarılması kimi" yanaşırdılar. Naxçıvan və Zəngəzurun strateji əhəmiyyətini nəzərə alan Qərb dövlətləri, ilk növbədə isə Böyük Britaniya və ABŞ həmin bölgələrdə nüfuza malik olmağa çalışırdılar. O dövrdə bütün millətlərin siyasi taleyini həll edən və Versal konfransında kiçik millətlərin də haqlarının qorunmasından, milli-azadlıq hərəkatlarının siyasi nəticəsi kimi yaranan yeni milli dövlətlərin haqlarının bərabər surətdə qorunmasından danışan bu superdövlətlər təəssüf ki, daha çox ermənilərə siyasi və hərbi dəstək verirdilər və ermənilər də bu böyük güclərin dəstəyinə arxalanaraq Naxçıvan və çevrəsini işğal etməyə çalışırdılar.

Azərbaycan hökuməti bəhs olunan bölgə üzərində yaranmış real təhlükəni dəf etmək üçün Transqafqazda fəaliyyət göstərən diplomatlarının səylərini bu istiqamətə yönəltməyi, bölgənin qurtuluşu istiqamətində ən zəruri vasitə hesab edirdi. Əlbəttə, təhlükənin episentri olan erməni faktorunun ortasında olan böyük gəncləri Müttəfiqlər, Rusiya və İranla diplomatik vasitələrlə ən azı neytrallaşdırmaq heç də asan məsələ deyildi. Ona görə ki, I Dünya müharibəsindən sonra bütün Transqafqaz millətlərinin azadlıq yönündəki direniş cəhdlərini öz siyasi iradələrinə tabe etdirməyə və türk-müsəlmanların ən etibarlı tərəfdaşı olan Türkiyəni Cənubi Qafqaza, Orta Asiya və ümumiyyətlə, türk dünyasına yönəlik ən əlverişli yoldan məhrum etmək üçün Naxçıvan və çevrəsinin

ermənilər tərəfindən tezliklə zəbtinə çalışan Müttəfiqlər, Rusiya və İranı bu siyasi burulğanda Azərbaycana güzəştə gedəcəyinə inanmaq sadəlövlük olardı. Yeri gəlmişkən, İran da öz növbəsində Naxçıvanı ələ keçirməyə meylli idi. Belə kövrək bir zamanda İran agentləri çətin psixoloji durumda olan əhalini İrana meylləndirməyə çalışırdılar. Bu durumda Naxçıvan böyük dövlətlərin Azərbaycan və Türkiyə ilə diplomatik münasibətləri müstəvisində düyün nöqtəsinə çevrilmişdi.

XX əsrin 20-ci illərinin əvvəllərində Naxçıvan Türkiyə-Sovet münasibətləri müstəvisinə keçdi. On altı aylıq uzun bir vaxtdan sonra 18 mart tarixində Moskva andlaşması rəsmi olaraq tərəflər tərəfindən imzalanır. Ancaq iki tərəf bu andlaşmanın tarixini İstanbulun işğal tarixi olan 16 mart tarixi ilə dəyişdirirlər (Soysal, 1989, s. 7–16, 47, s. 119). Bu andlaşmaya görə tərəflər bir-birlərinə zorla diqtə etdirilən hər hansı bir sülhü tanımayacaqlarını, Sovet Rusiyası Türkiyə ilə əlaqədar olan, "Misak-ı Milli"də göstərilən, TBMM rəhbərliyinin qəbul etməyəcəyi hər hansı bir andlaşmanı tanımayacaqdır. Batum Gürcüstan idarəsində saxlanılacaq, əhalisinə muxtariyyət veriləcək, Türkiyənin Batum limanından istifadə etmə hüququ olacaqdır. Naxçıvan isə Azərbaycanın qoruyuculuq hüququnu üçüncü bir dövlətə buraxmamaq şərti ilə muxtar bölgə statusunu əldə edəcəkdir. Boğazlar bütün millətlərin gəmilərinə açıq olacaq və onların təhlükəsizliyini Qara dənizə sərhəddi olan dövlətlər tərəfindən Türkiyənin müstəqilliyinə uyğun formada təmin ediləcək, tərəflər öz sərhədləri daxilində digər tərəfə düşmən axım və qruplarına icazə verməyəcəkdir. Sovet idarəsi həmçinin Türkiyəyə tətbiq edilən sanksiyaları tanımayacaqdı (Tengirşek, 1981, s. 223–224).

Moskva andlaşması 7 iyul 1921-ci il tarixdə Türkiyə Böyük Millət Məclisinə təqdim edilir. 5-i əleyhinə, 201-i lehinə səs verilir. Moskva andlaşması hər iki tərəf üçün mənfəətli idi. Rusiya Müttəfiq dövlətlərinə qarşı yeni bir dost qazanır, Qafqaz və Şərqdəki müsəlman ölkələri arasında öz mövqeyini və təsirini gücləndirirdi. Sovet ölkəsi təhlükəsizliyini qorumaq üçün Türkiyənin boğazlardakı mövqeyini möhkəmləndirir və gələcəkdə öz rejimini bu ölkəyə ixrac etmə məqsədlərini mühafizə edirdi. Digər tərəfdən Türkiyə bu andlaşma ilə böyük bir diplomatik zəfər qazandı. Milli maraqlarını müəyyən bir mərhələyə qədər qoruyur və beləcə şərq sərhədlərinin təhlükəsizliyini təmin edirdi. Böyük bir dövlət tərəfindən tanınmaq hüquqi cəhətdən beynəlxalq etibarını artırdı, Müttəfiq dövlətlərinə qarşı böyük bir gücdə qazanmış oldu. Türkiyə həm də ayrıca Rusiyadan yardım almağa başladı. Ruslar türklərə silah və sursat ilə birgə 10 milyon qızıl rubl verilməsinə təminat verdi (Yerasimov, 1979, s. 230–231).

Moskva andlaşması türklər üçün əvəzedilməz idi. Digər tərəfdən isə mütəmadi imperialist təhlükəsinin altında yaşayan Sovet Rusiyası üçün ən müdafiəsiz bölgələrdən olan Qara dəniz və Cənubi Qafqazın qarşısında yerləşən Türkiyə Rusiya üçün bir qalxan rolunu oynaya biləcəkdi. Bunun əksinə, Türkiyə Rusiyaya qarşı bir silah da ola bilərdi. Türkiyənin imperialist ölkələrə qarşı mühafizə edilməsi Sovetlərin təhlükəsizliyi baxımından həyati əhəmiyyət kəsb edirdi.

Şübhəsiz, Moskva andlaşması türk-sovet münasibətlərində yeni bir mərhələ idi. Hər iki tərəfə zorla diqtə etdirilməyən bir andlaşma olması ilə birgə, təzyiq və ya istismar vasitəsi olan heç bir şərti özündə əks etdirmirdi. Əksinə, bu istismarçı güclərə qarşı bir sənəd idi.

Moskva andlaşması ilə bir çox problemin həll edilməsinə baxmayaraq, ortada müəyyən şübhələr qalmaqda idi. Gümrü məsələsində bu şübhələr ortaya çıxmışdı. Qırmızı ordu daşnak ermənilərinin üsyanını basdırmaq istəyirdi, lakin Gümrünün türk hərbi birləşmələri tərəfindən işğal edilməsi bunun qarşısını alırdı. Beləcə Gümrü problemi və buna bağlı olaraq Gümrü andlaşması, ümumilikdə Qafqaz Cümhuriyyətləri ilə Türkiyə arasında bağlanacaq olan andlaşmalar problemi, Moskva andlaşmasına baxmayaraq məsələnin uzanmasına səbəb olurdu. Qırmızı Ordu komandiri A.İ. Xekker Qarabəkir Paşa ilə görüşmək istəyirdi. Qarabəkir Paşa əvvəlcə erməni idarəsindən Moskva andlaşmasını tanıdıqlarını bəyan etmələrini tələb etdi. O, Gümrünün Ankara hökumətinin əmri ilə işğal edildiyini, hökumətdən yeni bir əmr gəlmədiyi müddətcə boşaldılmayacağını söyləyərək birbaşa Ankara ilə əlaqə qurulmasını təklif etdi (Karabekir, 1994, s. 906–907).

Moskva andlaşmasının üzərindən 1 ay keçmədən yeni böhranlı dövr başladı. Bu əsnada türk heyəti Bakıya gəldi. Burada Azərbaycan ilə ayrılıqda bir andlaşma imzaladı. Burada əsas məqsəd erməniləri tək buraxmaq idi. 2 aprel tarixdə Rus Kommunist Partiyası Siyasi Bürosunun aldığı qərara görə, üç Qafqaz Cümhuriyyətinin Türkiyə ilə ortaq bir konfrans təşkil etmələri təklif olunurdu. 15 apreldə Qafqazdakı Sovet nümayəndəsi B.V. Leqren, Gümrü nümayəndəsi M.D. Oraxelaşvili və

O.K. Orcenekidze ilə aparılan müzakirələrdə Yusif Kamal birgə konfransın çağrılmasını qəbul etdi. İclasın Qarsda keçirilməsini təklif etdi.

Bununla yanaşı, Ankaranın Bakı nümayəndəsi Memduh Şövkət bəy Azərbaycan ilə ayrılıqda sülh danışıqlarını davam etdirirdi. Bu ərəfədə 19 aprel tarixdə M.D. Hüseynov və Behbud Şahtaxtinski ilə müzakirələr aparılaraq təşkil olunacaq konfransda Türkiyənin üç Qafqaz Cümhuriyyəti ilə ayrı-ayrı andlaşmalar imzalaması yerinə, bu andlaşmaların birgə imzalanmasına qərar verdi. Həmçinin Azərbaycan hökuməti, Gürcüstan və Ermənistanın da qəbul etməsi şərtilə konfransın Qars şəhərində keçirilməsini tələb etdi. 15 apreldə Ankara Gümrünün bir həftə içində boşaldılmasına qərar verdi (Karabekir, 1994, s. 892). Beləcə 23 aprel tarixdə Gümrü boşaldıldı. Gümrünün boşaldılması ilə Tali və Seyfi bəy Moskva andlaşmasının əsl nüsxəsi ilə birgə 24 apreldə Sarıkamışa gəldilər.

Yeri gəlmişkən, Moskva və Qars konfranslarında, məhz Naxçıvanın qurtuluşu üçün əldə olunan uğurlarda görkəmli diplomat Behbud bəy Şahtaxtinskinin də xüsusi rolu olmuşdur. O, bütün diplomatik səylərini ərazi bütövlüyümüzün qorunmasına həsr etmiş, hətta taleyüklü məqamlarda, xüsusilə Naxçıvanın işğaldan qurtuluşu üçün öz siyasi karyerasını zərbə altına qoymaqdan belə çəkinməmişdir. Müasir rus tarixçisi R. İvanov zəngin arxiv materiallarına dayanaraq Naxçıvanda bolşeviklərin törətdiyi faciələrə həsr etdiyi "Naşestvie" (Basqın) adlı qiymətli əsərində yazır ki, bolşeviklərin Naxçıvanın Sovet Ermənistana verilməsi haqqındakı bəyanatını xalq dəstəkləmədi. Bu bədnam qərarın elanından sonra Naxçıvan İnqilab Komitəsinin sədri Behbud Şahtaxtinski Mərkəzin bu avantürasına, Naxçıvanın qoparılmasına qarşı açıq və kəskin çıxış etdi, Naxçıvan İnqilab Komitəsinin binası qarşısında toplanan kütləyə müraciətlə bildirdi: "Azərbaycan sizi satmışdır, əgər mən Bakıda olsaydım buna yol verməzdim... İndi siz türklərə etimad göstərin. Sizin xilasınız onlardır. Onlardan bərk yapışın" (İvanov, 2009, s. 52). Bu ağır tarixi məqamda o, Naxçıvanın siyasi tale-yini özünün ideoloji prinsiplərindən üstün tutdu. B. Şahtaxtinski Moskvanın saxta beynəlxalqçılıq avantüralarına uymadı.

Behbud bəy Şahtaxtinski çevik bir diplomat idi. Onun siyasi fəaliyyətinin mühüm istiqamətini diplomatik fəaliyyət təşkil edirdi. Əslində Azərbaycanın yaşadığı mürəkkəb geosiyasi şərait, onun maraqlarının qorunması vacibliyi B. Şahtaxtiniskini məcburi diplomat etsə də o, xalqımızın siyasi maraqlarının müdafiəsi istiqamətində mühüm işlər gördü. Eyni zamanda görkəmli siyasətçini Naxçıvanın hüquqi-siyasi taleyi düşündürürdü. O da N. Nərimanov kimi bolşeviklərin elan etdiyi "millətlərin öz müqəddəratını təyin etmə prinsipi"nə inanmışdı. B. Şahtaxtinski Naxçıvanı qoparmaq üçün ermənilərin Mərkəzdə nə qədər canfəşanlıq etdiklərini görürdü. Bunun üçün də bütün diplomatik fəaliyyətini Naxçıvanın hüquqi-siyasi statusunun reallaşdırılması istiqamətinə yönəltmişdi. Elə buna görə də B. Şahtaxtinski sonralar Naxçıvanla bağlı konfrans və siyasi müqavilələrdə başlıca rol oynamışdı. Behbud bəy Şahtaxtinski uzaqgörən bir diplomat idi. O, Mərkəzdə olarkən fövqəladə səlahiyyətindən Azərbaycanın əsas problemləri olan ərazi-sərhəd, müstəqillik və xalqın hüquqi məsələlərinin həllində yararlanmağa çalışırdı. Bu, onun Rusiyanın Xalq Xarici İşlər Komissarlığına göndərdiyi məktubunda da görünür. B. Şahtaxtinski Moskvaya xəbərdarlıq edirdi ki, "Azərbaycan və İranda siyasi səhvlər buraxılarsa, Şərqdəki vəziyyət bizim üçün ən yaxın zamanlarda pisləşə bilər... Zaqafqaziyada və ümumiyyətlə Şərqdə vəziyyətin mürəkkəbliyini nəzərə alaraq tərəfimdən qoyulmuş məsələləri ən qısa müddət ərzində müzakirə və həll etmənizi xahiş edirəm". Onun Moskva qarşısında qaldırdığı məsələlərin ən mühümü Azərbaycan ərazilərinin zorla qoparılmasının qarşısının alınması ilə bağlı idi. Behbud bəy Mərkəzi hökumətin nəzərinə çatdırırdı ki, "Çevrilişdən əvvəl Azərbaycana məxsus olan ərazilər — Zaqatala dairəsi, Qarabağ, Naxçıvan diyarının tərkibində qalmalıdır. Bu ərazilər Müsavat hökuməti vaxtında mübahisəsiz Azərbaycanın tərkibində idi, üzvi surətdə onun hissəsi olmuş və tarixi, etnoqrafik, iqtisadi baxımdan onunla sıx bağlı olmuşdur. Bundan asılı olmayaraq, Rusiya mənəvi və siyasi nöqteyi-nəzərdən bu torpaqları Azərbaycandan qoparmamalı və burada, Şərqin qapısında, artıq mövcud olan sovet idarələrini əhalisinin gözü qarşısında daşnaklar və gürcü menşevikləri tərəfindən xarabaya döndərilməyə imkan verməməlidir" (İbrahimzadə, 2007, s. 72).

Mərkəz qarşısında belə kəskin bir tələbdə bulunmaqla B. Şahtaxtinski artıq öz gələcək siyasi karyerasını çox böyük bir təhlükə qarşısında qoymuş olurdu. Elə məhz belə diplomatik addımlara

görə gələcəkdə N. Nərimanovla bərabər ona da millətçi damğası vurulacaqdı. Tarixçi Ə. Əliyevin yazdığı kimi, "43 yaşlı B. Şahtaxtinski təbii ölümü ilə qarşıdakı faciəvi həyatından xilas olmuşdur" (Əliyev, 2004, s. 188). Hələlik Mərkəz bunları sakitcə "həzm" edirdi. İlk vaxtlar Rusiyanın Azərbaycanla bağladığı "bərabərhüquqlu" müqavilələr saxta bolşevik "demokratizminin" ilkin göstərgəsiydi.

Yeri gəlmişkən, arxiv materiallarını araşdırarkən məlum oldu ki, 1920-ci il sentyabrın 30-da Rusiya ilə Azərbaycan arasında ilk hərbi-iqtisadi və sosial xarakterli müqavilələr bağlanmış və bunları Rusiya tərəfdən Çiçerin, Azərbaycanın adından isə B. Şahtaxtinski imzalamışdır. Bu müqavilələr iki ölkə arasında birgə hərbi-iqtisadi siyasətin yürüdülməsi, poçt-teleqraf və xarici ticarətin Mərkəzə tabe etdirilməklə birgə idarə olunması və s. məsələlərə aiddir. Əslində bu müqavilə gənc Sovet Azərbaycanının gələcək müstəqillik cəhdlərinin tədricən buxovlanması aktları idi. Məsələn, müqavilələrdən biri xarici ticarət sahəsində birgə fəaliyyəti nəzərdə tuturdu. Burada hiyləgər və avantürist bolşevik Rusiyasının əsl məqsədi strateji sərvət olan neftin Azərbaycan tərəfindən müstəqil olaraq xaricə çıxarılmasının qarşısını almaq idi.

1920-ci il iyunun axırında Azərbaycan SSR-in xarici işlər komissarı M.D. Hüseynov Sovet Rusiyası və Sovet Azərbaycanının qarşılıqlı münasibətlərini aydınlaşdırmaq, iki ölkə arasında sıx ittifaq yaratmaq, habelə beynəlxalq məsələlər barədə fəaliyyət planını razılaşdırmaq və işləyib hazırlamaq məqsədilə Moskvaya getdi. 1920-ci il iyulun 26-da Moskvaya gələn M.D. Hüseynovu Azərbaycanın buradakı daimi nümayəndəsi B. Şahtaxtinski ilə birgə V. İ. Lenin və G.V. Çiçerin qəbul etdi. Uzaqgörən, cəsarətli və bütün siyasi iradəsini Moskvadan Azərbaycana qarşı yönləndiriləcək təhlükələrə qarşı qoymuş Behbud bəy Rusiyanın Naxçıvan və çevrəsi, eləcə də Qarabağ və Zəngəzurla bağlı gizli planlarını artıq bilirdi. Buna görə də hadisələri qabaqlayıb xalq xarici işlər komissarı G. Çiçerinə məktub göndərdi. Məktubda əsasən Azərbaycan üçün ən böyük təhlükə olan erməni məsələsi Çiçerinin diqqətinə çatdırılır və Naxçıvanın tarixi taleyindən ciddi narahatçılıq duyğuları qabarıq hiss olunur. Məktubda Çiçerinə bildirilir ki, bütün Naxçıvan diyarının və Şahtaxtı-İrəvan dəmiryol xəttinin Ermənistana verilməsi daşnaklara Bakı dəmiryolundan istifadə etməyə və İrandan özlərinə xeyli silah-sursat və ərzaq təmin etməyə imkan yaradacaq və Ermənistan Rusiyanın əlindən çıxmış olacaq. Eyni zamanda Ermənistana Şahtaxtı-İrəvan və Şahtaxtı-Culfa dəmiryol xətlərinin nəqliyyat vasitələrinin hamısı ilə birgə keçməsi daşnakların əlinə bütün İran Azərbaycanını keçirir, onları İrandakı ingilis qüvvələri ilə birləşdirir, bizi isə türk inqilabi hərəkatı ilə istənilən əlaqədən məhrum edir. Məktubda Naxçıvan məsələsinin qoyuluşu çox ağıllı məntiqə söykənir.

Behbud bəy Çiçerinə yazır ki, Naxçıvan diyarı böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malikdir, çünki buradan bir dəmiryol xətti İranın Maku xanlığına və oradan Türkiyənin Bayəzid şəhərinə, digəri isə İranın Təbriz şəhərinə aparır. Beləliklə, mühüm dəmiryolu məntəqəsi kimi Naxçıvan diyarı bizi Türkiyə ilə və İranın zəngin əraziləri ilə birləşdirir. Daşnakların xeyrinə bu vacib birləşdirici məntəqədən Azərbaycan və Rusiya imtina etməməlidirlər. Naxçıvan diyarının əhalisi 1918-ci ildə türklərin gedişindən sonra müvəqqəti olaraq Araz Respublikasının yaradılmasını elan etmişdi (İbrahimzadə, 2007, s. 76–77).

Məktubun məzmunundan görünür ki, görkəmli diplomat özünün bütün diplomatik səy və bacarığını və siyasi iradəsini Naxçıvan və çevrəsinin qurtuluşuna yönəltmişdir. Əslində B. Şahtaxtinskinin bu istiqamətdəki ciddi səyləri rus və Azərbaycan bolşeviklərinin Qarabağ, Naxçıvan və Zəngəzurun Ermənistana birləşdirilməsinə dair mənfur bəyanatlarının tam həyata keçməsinə imkan vermədi. B. Şahtaxtinskinin diplomatik gedişlərinin ən konstruktiv tərəfi isə türklərin burada olmasını ciddi dəstəkləməsi idi. Behbud bəy yaxşı bilirdi ki, bu siyasi xətt Naxçıvanın birbaşa işğalının qarşısını almış olur.

Behbud bəy Şahtaxtinski diplomatik bacarığı ilə yanaşı, həm də yüksək mənəvi prinsiplərə malik bir insan idi. Belə ki, o, Rusiyada oxuyan müsəlman tələbələrə kömək, himayədarlıq edirdi. 15 avqust 1920-ci ildə Sverdlov adına Kommunist Universitetində Bakıdan göndərilib təhsil alan 17 qafqazlı tələbələr qrupu adından qəbz verilmişdi ki, B. Şahtaxtinski onların ehtiyaclarının ödənilməsi məqsədilə iki torba un, 36 ədəd sabun, 1 funt yağ, 1 pud ikra, 1 pud düyü, həmçinin balıq, çay, iynə-sap, papiros, kibrit vermişdi (İbrahimzadə, 2007, s. 90).

Behbud bəy Şahtaxtinski sürətlə cərəyan edən hadisələr kontekstində hər zaman aydın və şəffaf mövqe nümayiş etdirən bir siyasətçi idi. Bolşevik dairələrində də Behbud bəy ağıllı bir siyasətçi kimi tanınırdı. Belə ki, Gümrü müqaviləsinin bağlandığı və Rusiya bolşevik hökumətinin onu tanımadığı günlərdə B. Şahtaxtinski Azərbaycan bolşevik liderlərinə təlqin etməyə çalışırdı ki, türklərin mövqeyini müdafiə etmək torpaqlarımızın xilası deməkdir. O, Türkiyə milli hərəkatının görkəmli liderləri ilə (Ərzurum millət vəkili Süleyman Nəcati, Ərzurum valisi Hamid bəy və s.) söhbətlərinin məğzini xalq xarici işlər komissarı M.D. Hüseynova çatdıraraq, onların Rusiya ilə qarşılıqlı müdafiə müqaviləsi bağlamaq niyyətini və həmin müqavilənin özü tərəfindən təqdim edilən layihəsindən xəbər verirdi. Türklərin "Azərbaycanın xarici siyasətinə rəhbər saydıqları Behbud Şahtaxtinski" onların siyasi mövqelərini tamamilə aydınlaşdırmaq məqsədilə səmimiyyət nümayiş etdirmişdi. Türklərlə olan bu səmimi münasibətlərinə görə onun haqqında Mərkəzə çoxlu yalan məlumatlar göndərirdilər. Bu sahədə Naxçıvana ermənilərin himayəsi ilə fövqəladə komissar təyin edilən Bahadur Vəlibəyov canfəşanlığı ilə daha çox tanınmışdı. Bununla bağlı Türkiyə tarixşünaslığında da arxiv araşdırmalarına dayanan maraqlı bilgilər var. Bu tarixi notlara əsasən Naxçıvanın türk himayəsi altına girməsi ilə əlaqədar idarəçilik işlərində bir sıra dəyişikliklər baş verdi. Naxçıvanın yerli idarəetmə sistemində vəzifəsi olanların əksəriyyəti azərbaycanlılar idi. Behbud bəy Şahtaxtinski hələlik bu işçilərin öz yerində qalmasına türk nümayəndəsinin nəzarət edəcəyini məqsədəuyğun saymışdı. Türk siyasətinə uyğun fəaliyyət göstərən Behbud bəy buradakı Türkiyənin fövqəladə komissarı general Veysəl Ünüvarın diqqətini Vəlibəyov məsələsinə yönəldərkən onun ermənilər tərəfindən Naxçıvana fövqəladə komissar təyin edildiyini vurğulamış, gələrsə sərhəddən buraxılmamasını demişdir (Musayev, 1998, s. 406).

XX əsrin əvvəllərində Azərbaycan ziyalıları Transqafqaz Konfederasiyası ideyasını gündəmə gətirmişdilər. Bu ideya Qafqaz xalqlarının nicat yolu və onlar arasında bütün insidentlərin həll olunmasının ən ideal variantı idi. Bu ideyanı cümhuriyyət liderləri də siyasi gündəmə çıxarmışdılar, lakin hər zaman olduğu kimi yenə də ermənilər bu ideyanın reallaşmasına imkan vermədilər. Behbud bəy Şahtaxtinski də Nərimanovun prinsipial fikirlərinə dayanaraq Qafqaz xalqlarının birliyi məsələsini diplomatik kluarlarda ortaya atırdı. Lakin Rusiya bolşevik hökuməti bu ideyadan işğalçılıq məqsədilə, respublikaları süni bir qurumda birləşdirməklə onların işğalını tezləşdirməyə çalışırdı.

Behbud bəy Şahtaxtinskinin Moskva və Qars müqavilələrinin hazırlanması və imzalanması prosesində göstərdiyi tarixi xidmətlər onun adını diplomatiya tariximizə əbədi yazmış oldu. Bu müqavilələr Naxçıvanın hüquqi-siyasi statusunu müəyyənləşdirdi və bu region üzərində Türkiyənin tarixi himayəsini təmin etmiş oldu.

Behbud bəy Moskva müqaviləsinin reallaşması istiqamətində çox gərgin fəaliyyət göstərirdi. O, hələ 1920-ci ilin yayında Moskvada olarkən Türkiyə Böyük Millət Məclisi hökumətinin nümayəndə heyəti və xarici işlər naziri Sami bəy başda olmaqla buraya gəlir. Səfərin əsas məqsədi Sovet Rusiyası ilə Kəməl hökuməti arasında diplomatik münasibətlər qurmaq və dostluq müqaviləsi imzalamaq idi. Müvafiq sənədlərin imzalanması qarşılıqlı razılığa əsasən Bakıda keçirilməli idi, lakin sonradan Çiçerinin təklifi ilə danışıqların Moskvada aparılması qərara alındı. Onun Türkiyə hökumətinə 9 dekabr 1920-ci il tarixli notasında bu danışıqlarda Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirakının vacibliyini qeyd etmişdi. Rusiya diplomatiyası danışıqlara Azərbaycan və Ermənistanı qatmaqla onları Türkiyəyə qarşı qoymaq və regionda öz planlarını həyata keçirmək məqsədi güdürdü (İbrahimzadə, 2007, s. 108).

Lakin B. Şahtaxtinskinin Moskvadan M. Hüseynova göndərdiyi 26 fevral 1921-ci il tarixli məktubundan məlum olur ki, türklər bu respublikaların konfransda iştirakını istəmirdilər. Türklər bildirirdilər ki, onlarla Azərbaycan arasında heç bir mübahisəli məsələ yoxdur və Azərbaycanla müqavilə xüsusi bağlanacaqdır. Ermənistan nümayəndəsinin iştirakına qarşı ona görə çıxırlar ki, onlar Aleksandrapol müqaviləsini qüvvədə hesab edirlər və ondan imtina etmək istəmirlər. Rusiya isə Azərbaycanla ayrıca müqavilə bağlanmasının əleyhinədir. Behbud bəy əvvəlcə Azərbaycan, sonra isə Ermənistanın nümayəndələrini konfransa salmaq istəyirdi. Eyni zamanda o, Azərbaycan bolşevik liderlərinə izah edirdi ki, bir sıra taleyüklü prinsipial problemlərə görə Türkiyə ilə müna-

sibətləri soyuqlaşdırmaq olmaz. O, müdrik diplomat idi, bilirdi ki, bu addım ermənilərin xeyrinə, Azərbaycanın isə zərərinə olacaqdır.

Moskva danışıqlarında Türkiyə nümayəndə heyətinin ciddi səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü qismən də olsa qorunmuş, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi və onun hüquqlarının Azərbaycandan başqa heç bir dövlətə verilə bilməməsi razılaşdırılmış və sərhədlər müəyyən edilmişdi. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi. Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilmədisə də, regionun türklərin əlində qalması təmin edilmiş, Naxçıvan Azərbaycanın himayəsinə verilmişdi. Yeni xarici işlər naziri Yusif Kamal bəyin dönə-dönə vurğuladığı kimi, Naxçıvan müsəlmanları bir daha soyqırımına məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdi. Belə bir nəticənin hasil edilməsində Moskva danışıqlarında Azərbaycan təmsilçisi B. Şahtaxtinskinin də əməyi və xidməti olmuşdur. O, 1921-ci il martın 1-də Leninə göndərdiyi məktubda duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Martın 7-də Leninin dərkənarı ilə Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmış, B. Şahtaxtinskinin təklifi də nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu. Müzakirələrin sona yetdiyi bir vaxtda – 1920-ci il martın 13-də B. Şahtaxtinski Azərbaycanın XİK-ə teleqram göndərərək Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasının və müqaviləyə əsasən heç vaxt onun Ermənistana verilməməsinin razılaşdırıldığını xəbər verirdi (Musayev, 1998, s. 346).

Moskva müqaviləsini imzalamaqla Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. Əslində bu Azərbaycanın suverenliyinin təmin edilməsi idi. Moskva müqaviləsi imzalandıqdan az sonra, 1921-ci ilin aprelində Türkiyənin məhdud qoşun hissəsi Naxçıvan mahalını tərk etdi. Bu müqavilənin 1921-ci ilin martın 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi, həmin il iyulun 21-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənməsi ilə Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı, Azərbaycanın xeyrinə həll olundu. Bu çox böyük əhəmiyyəti olan bir siyasi-diplomatik akt idi. Heç təsadüfi deyil ki, Türkiyə diplomatları Ankaraya döndükdə Mustafa Kamal Paşaya müraciətlə "Naxçıvan üzərində əldən gələni yapdıq" dedikdə o, "Qapımız mövcudiyyətini mühafizə edin, bizim üçün mühüm olan budur" söyləmişdi. Moskva müqaviləsindən iki həftə sonra, 1921-ci il aprelin əvvəllərində Azərbaycan Sovet hökuməti Naxçıvanın taleyi ilə əlaqədar göstərdiyi misilsiz xidmətlərinə görə kiçik bir xatirə olaraq Şərq cəbhəsi komandanı Kazım Qarabəkir paşaya və TBMM başqanı Mustafa Kamal paşaya 800 əyar gümüşdən, 24 nəfərlik 279 vahiddən ibarət iki yemək serviz dəsti hədiyyə göndərdi.

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış Moskva müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının Zəngəzur mahalını Ermənistana verilməsi olmasaydı, bəlkə də heç Naxçıvanın muxtariyyəti də lazım deyildi. Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi. Naxçıvana muxtariyyət qazandırmaq, Moskva müqaviləsində Naxçıvanın müqəddəratını həll etmək asan məsələ deyildi. Ancaq Azərbaycanın milli mənafeyini qoruyan Behbud ağa Şahtaxtinski kimilər bunu etmişlər. Bu, Azərbaycanın tarixi nailiyyəti və eyni zamanda Türkiyə dövlətinin Azərbaycanın dövlətçilik siyasətinə və Naxçıvanın muxtariyyatının əldə edilməsinə tarixi xidmətidir (İbrahimzadə, 2007, s. 113–114).

Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə ilə Güney Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Bu konfransın çağırılması ilə bağlı Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan, Gürcüstan arasında diplomatik yazışmalar getdi, notalar mübadiləsi oldu.

## Nəticə

Ümumiyyətlə 20-ci illərin əvvəllərindəki Azərbaycan-Türkiyə münasibətlərinin bəzi məqamlarına işıq salan bu diplomatik yazışmalarda bir sıra maraqlı notlar nəzər-diqqəti cəlb edir: a) Rusiyanın Zaqafqaziya respublikalarını Türkiyəyə qarşı vahid cəbhədə birləşdirmək səyləri; b) rəsmi Moskvanın siyasətinin yedəyində gedən Azərbaycan rəhbərliyinin əksər hallarda Türkiyəyə arxa çevirməsi; c) özünün regiondakı müəyyən maraqlarını təmin etməyə çalışan Türkiyənin Azərbaycanın ərazi bütövlüyü, xüsusilə də Naxçıvan və s. ərazilərlə bağlı hələ də narahatlıq keçirməsi.

1921-ci il sentyabrın 26-sı ilə oktyabrın 13-ü arasında keçirilən Qars konfransının iclaslarının protokolları və stenoqramlarının təhlili göstərir ki, burada da danışıqlar çox gərgin və prinsipial şəraitdə keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişdilər. Konfransda Türkiyə yenə də onunla Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilələr imzalanmasına dair öz mövqeyini təkrarlasa da, danışıqlarda vasitəçi rolunda iştirak edən Rusiya və əks tərəflər buna razı olmamışdılar. Azərbaycan nümayəndəsi B. Şahtaxtinski isə vahid müqavilənin bağlanmasının Güney Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğunu, inqilabi zərurətin bunu tələb etdiyini söyləmişdi (Musayev, 1998, s. 348-349).

Müqavilənin hazırlanması, razılaşdırılması və imzalanması prosesində Naxçıvan ölkəsinin mənafeyini konfransda müdafiə etmək üçün Naxçıvan SSR-in XKS Tağı Səfiyevi Qarsa ezam edilmişdi. Ertəsi gün Yusif Kamal Tbilisidə gürcü nümayəndələri ilə görüşəndən və Qars konfransı barədə verdikləri qərardan sonra 4 milyon qızıl rubl ilə yola çıxdı. 29 aprel tarixdə isə Sarıqamışa gəldi (Karabekir, 1994, s. 908).

Qars konfransında ən çox mübahisə doğuran məsələlər Batum və Naxçıvanın muxtariyyət statusunun əhatə dairəsi olmuşdur. Xüsusi müzakirələrdə isə Kuvartsxana və Murqul mis mədənləri ilə Qulp duz müəssisələrinin gürcü və ermənilərə verilməsi ruslar tərəfindən tələb olunmuş, ancaq türk tərəfi bunu rədd etmişdir. Nəticə olaraq 13 oktyabr 1921-ci ildə bütün nümayəndələr tərəfindən Qars andlaşmasının mətni imzalanmışdır (Karabekir, 1960, s. 970-973).

Ancaq onu da ifadə etmək lazımdır ki, TBMM-nin peşəkarcasına idarə etdiyi xarici siyasət prinsipləri, üstün komandanlıq səviyyəsi və nizamlı hərbi qüvvəsi ilə bu məsələlər həll edilmiş və Qafqazda sabitlik təmin olunmuşdur. Lakin bu gün ermənilər və onların havadarları bu sabitliyi dağıtmaq arzusu və xəyalı ilə ssenarilər yazmaqdadır. Halbuki, ermənilər Qars andlaşmasını imzalamaqla andlaşma şərtlərini, o cümlədən Naxçıvanın dövlət statusunu pozmayacaqlarına söz vermişdilər. Lakin Ermənistan sonradan bu andlaşmanın şərtlərini pozaraq, Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 19 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasına məxsus, ümumilikdə sahəsi 657 $km^2$-lik 9 kəndi (Xaçıq, Horadiz, Qurtqulaq (Şərur bölgəsi), Kərçivan (Ordubad bölgəsi)) ərazisini qopara bilmişdir (Hacıyev, 2007, s. 631).

Bununla kifayətlənməyən Ermənistan dövləti XX əsrdə öz niyyətlərindən vaz keçməyərək, hər fürsətdə Naxçıvana qarşı iddialarını davam etdirməkdə, buna mane olan Moskva və Qars müqavilələrinin ləğvini istəməkdədir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1992-ci ilin mart ayında Türkiyə cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini siyasi gündəmə gətirməsi qonşu dövlətlərə Naxçıvanla bağlı öhdəliklərini bir daha xatırlatdı.

## Ədəbiyyat

1. Atay, F. R. (2011). *Çankaya*. Cağaloğlu.
2. Əliyev, Ə. (2004). *Əlincə yaddaşı*. Elm və Həyat.
3. Hacıyev, İ. (2007). Ermənilərin Naxçıvan iddiaları: Arzular və reallıqlar. *Ermənişünaslıq: 2-ci Türk Konqresinin materialları* (II cild, s. 1105–1113). EAE Yayınları.
4. İbrahimzadə, F. (2007). *Behbud Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti*. RDS-Nəşriyyat-Poliqrafiya Müəssisəsi.
5. İvanov, R. (2009). *Nashestvie*. Qeroi Otechestva.
6. Kırzıoğlu, M. F. (1999). *Qars vilayəti və ətraflarında erməni vəhşilikləri (1918–1920)*. Köksav.
7. Kissinger, H. (2006). *Diplomatiya*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.

8. Musayev, İ. (1998a). *Azərbaycan-Türkiyə münasibətləri (1917–1922)*. Bakı Universiteti Nəşriyyatı.
9. Musayev, İ. (1998b). *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər)*. Universiteti Nəşriyyatı.
10. Qarabəkir, K. (1960). *Müstəqillik döyüşümüz*. Emre Yayınları.
11. Qarabəkir, K. (1994). *Erməni fayl*. Emre Yayınları.
12. Soysal, İ. (1989). *Türkiyənin siyasi müqavilələri (1920–1945)* (Cild 1). TTK Yayınları.
13. Tengirşek, Y. K. (1981). *Vətənə Xidmətdə*. KB Yayınları.
14. Uçarol, R. (2000). *Siyasi tarix (1789–1999)*. Filiz Kitabevi.
15. Ünüvar, V. (2006). *Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)*. Əcəmi.
16. Yerasimov, S. (1979). *Oktyabr İnqilabından Milli Mübarizəyə qədər Türkiyə-Sovet münasibətləri*. İstanbul: Boyut Kitabları.
17. Ziyadxanov, A. (1993). *Azərbaycan*. Azərbaycan Nəşriyyatı.

Daxil oldu: 07.03.2025
Qəbul edildi: 12.07.2025